# "Ü M İ D" SOSİAL İNKİŞAFA DƏSTƏK İCTİMAİ BİRLİYİ

*İNFORMASIYA BÜLLETENİ № 3, 2012*


## *"Ümid" SİD ABŞ Hökumətinin Əhali, Qaçqınlar və Miqrasiya Bürosu ilə yeni layihənin icrasına başladı*

### *Azərbaycanda məskunlaşmış Qaçqın və Məcburi Köçkünlər üçün peşə təlimi və gəlirin yaradılması*

"Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi Amerika Birləşmiş Ştatları Hökümətinin Əhali, Qaçqınlar və Miqrasiya Bürosunun maliyyə dəytəyi ilə 1 illik "Azərbaycanda məskunlaşmış Qaçqın və Məcburi Köçkünlər üçün peşə təlimi və gəlirin yaradılması" layihəsini həyata keçirməyə başlamışdır.

Layihənin məqsədi Bakı və Sumqayıtda məskunlaşmış məcburi köçkünlər və BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığında qeydiyyatdan keçmiş qaçqınların özlərinə inamını artırmaq üçün Azərbaycanda məcburi köçkünlər və qaçqınlar üçün peşə təlimlərinin təşkili və gəlirin yaradılmasıdır. Layihənin vəzifələrinə peşə təlimləri və kiçik bizneslərə dəstək verməklə, məcburi köçkünlər və qaçqınların peşə və sahibkarlıq bacarıqlarının artırılması daxildir.

*Bu layihənin hədəf qrupları Bakı və Sumqayıtda məskunlaşmış məcburi köçkünlər və qaçqınlardır. Əsas diqqət gənclərə veriləcəkdir. Layihə dövründə, Ümid 1330 nəfər birbaşa faydalananla işləyəcəkdir—Bakıda 600 qaçqın və Sumqayıtda 730 məcburi köçkün. Dolayı faydalananları da nəzərə alsaq, faydalananların sayının 4000-ə çatması planlaşdırılır.*

"Ümid" SİD bu layihə çərçivəsində Bakı və Sumqayıt şəhərlərində qaçqın və məcburi köçkün gənclərin peşə bacarıqlarının artırılmasını davam etdirəcək və onları gəlirin yaradılması və məşğulluq fəaliyyətlərinə cəlb edəcəkdir. Bu layihədə "Ümid" SİD İB-nin 2010-2011-ci illərdə oxşar layihələrdə istifadə etdiyi "peşə təlimi" formatından istifadə ediləcəkdir ki, bu formatın effektivliyi artıq sübuta yetirilmişdir.

"Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi bu sahədə usta yanında şagir hazırlığı kursları, biznes təlim və məsləhətlərin, həmçinin kompyuter təliminin verilməsi kimi tədbirlər həyata keçirəcək və bu təlimləri keçmiş şəxlərə MBİL qrantlar veriləcəkdir.

Layihə çərçivəsində həmçinin, kompüter təlimlərinin təşkili, internet xidmətindən istifadə, biznes təlimləri və kredit qurumları ilə əlaqələrin qurulması nəzərdə tutulur.

Nəticədə, sahibkarlar öz bizneslərini təşkil etmək, yerli şəraitə uyğun istehsal və satışı təmin etmək, məhsulların dəyərini, gəlir və mənfəəti hesablamaq, istehsal və xidmətlə məşğul olan sahibkarların biznes plan hazırlamaq, öz bizneslərini təsvir etmək və kredit sənədlərini hazırlamaq və kredit almaq, öz müəssisələrində inventarizasiyanı artırmaq və iqtisadi göstəriciləri dəqiq hesablamaq, qeydiyyat sənədlərinin hazırlanması və qeydə almaq, vergi hesablarını dəqiq hesablamaq və müəssisələrin təşkilat çərçivəsində planlaşdırma və nəzarəti yaxşılaşdırılmaq imkanlarını əldə edəcəklər.

### *Bu sayımızda:*


*"Ümid" SİD ABŞ Hökumətinin Əhali, Qaçqınlar və Miqrasiya Bürosu ilə yeni layihənin icrasına başladı* — 1

*Azərbaycanda məskunlaşmış qaçqın və sığınacaq-axtaranların bacarıqlarının artırılması* — 2

*"Gəlir və iş imkanlarının artırılması yolu ilə Azərbaycandakı məcburi köçkünlərə dəstək* — 3

*SEDA icma layihələrinin icrasına başladı* — 4

*Süd istehsalçılarının bazara çıxışlarının yaxşılaşdırılması onları bazar zəncirinin iştirakçılarına çevirir* — 5

*Coca-Cola Fondunun dəstəyi ilə Bakı məktəblərində təmir işləri başa çatmışdır* — 6

# Azərbaycanda Məskunlaşmış Qaçqın və Sığınacaq Axtaranların bacarıqlarının artırılması

UNHCR
The UN Refugee Agency

BMT QAK-nın dəstəyi ilə həyata keçirilən "Azərbaycanda Məskunlaşmış Qaçqın və Sığınacaq Axtaranların bacarıqlarının artırılması üçün peşə təlimi" layihəsinin əsas məqsədi hədəf qrupun iqtisadi imkanlarını yaxşılaşdırmaqdır. Qoyulmuş məqsədə nail olmaq üçün layihə qarşısında aşağıdakı vəzifələr durur:

*Layihə məqsədlərinə nail olmaq üçün layihə qarşısında aşağıdakı vəzifələr durur:*
*- Qaçqın və sığınacaq axtaran gəncləri Usta Yayında Şagird Hazırlığı (UYŞH) kurslarına cəlb etməklə, onların bilik və peşə bacarıqlarını artırmaq*
*- Qaçqın və sığınacaq axtaranları QQGM-nin təlim mərkəzində təşkil olunan kompüter kurslarına cəlb etməklə, onların kompüter, o cümlədən internetdən istifadə etmək bacarıqlarını artırmaq*
*- Qaçqın və sığınacaq axtaran ailələrin uşaqları üçün beynəlxalq yay düşərgəsini təşkil etmək.*

**1) Qaçqın və sığınacaq axtaran gəncləri Usta Yayında Şagird Hazırlığı (UYŞH) kurslarına cəlb etməklə, onların bilik və peşə bacarıqlarının artırılması :**




*Qadın-bərbəri sahəsində təlim*

Ötən rüblərdə olduğu kimi, bu rübdə də UYŞH kurslarına maraq göstərənlərə bu komponentin mahiyyəti, məqsədi və əsas yanaşma prinsipləri barədə məlumatlar verilmiş, kurslarda iştirak etmək istəyən gənclərdən müraciət ərizələri qəbul edilmişdir. Nəticə etibarilə, 11 sayda müraciət ərizəsi qeydə alınmışdır. Bu dəfə də əsas maraq qadın bərbəri sahəsinə olmuşdur. Seçim meyarlarına əsasən, iyul ayından başlayaraq 3 nəfər qadın bərbəri, 1 nəfər kompüter şəbəkəsinin qurulması və 2 nəfər vizaj peşə sahələri üzrə kurslara cəlb edilmişdir. Bu rüb ərzində, kursları başa vuranların sayı 12 olmuşdur. Onların hər biri, kursları müvəffəqiyyətlə başa vurduqları üçün müvafiq sertifikatlarla təltif edilmişdir. Hazırda kurslara davam edən gənclərin sayı 5-dir.

**2) <u>Qaçqın və sığınacaq axtaranların kompüter, o cümlədən internetdən istifadə etmək üzrə bacarıqlarının artırılması</u>**

Cari rüb ərzində, kompüter təlimlərində iştirak etmək üçün 22 nəfər müraciət etmişdir. Onlardan 9-u MS Office 2007 proqramı, 6-ı Photoshop proqramı və 7-i Corel Draw proqramını öyrənmək arzusunu bildirmişdir. Seçimə əsasən, bu rübdən başlayaraq kompüter kurslarına 6 nəfər, o cümlədən Photoshop kursuna 2 və Corel Draw kursuna 4 nəfər cəlb edilmişdir. Kompüter kurslarını bitirənlərin sayı 17 nəfər olmuşdur. Onlardan 5-i MS Office 2007 proqramı, 6-ı Photoshop proqramı, 4-ü Corel Draw proqramı və 2-i Cyberlink Power Director 10 proqramı üzrə kursları uğurla başa vurmuşdur.
Hər zaman olduğu kimi, internetdən istifadə edən və bu sahədə bacarıqlarını artırmaq istəyənlərin sayı az olmamışdır. İsti yay aylarına baxmayaraq, QQGM-nin kompüter təlim mərkəzinə gələnlərin sayı 110 nəfər olmuşdur.




*Kompüter təlimi*

**3) <u>Qaçqın və sığınacaq axtaran ailələrin uşaqları üçün beynəlxalq yay düşərgəsinin təşkili</u>**

Beynəlxalq yay düşərgəsi ilə bağlı fəaliyyətlər ACİ YF-nun dəstəyi ilə həyata keçirilən "Qafqazda Mədəniyyətlərarası Əməkdaşlıq" layihəsi ilə əməkdaşlıq şəraitində həyata keçirilmişdir. Beynəlxalq yay düşərgəsi iştirakçılarının qaçqın uşaqları və valideynlər ilə görüşü keçirilmişdir. Görüş zamanı, düşərgə iştiraçıları öz təəssüratları ilə bölüşmüş, öyrəndikləri və əldə etdikləri yeni vərdişlər, yeni dostlar, iştirak etdikləri tədbirlər barədə söhbətlər etmiş, uşaqların və valideynlərin müxtəlif suallarına cavab vermişdirlər. Sonda, düşərgə iştirakçıları uşaqlara "Art Terapiya" üzrə bir məşğələ keçirmişlər. Məşğələ uşaqların və valideynlərin böyük marağına səbəb olmuş, hətta sonda çeçen icması liderinin xahişini nəzərə alaraq bu məşğələ, təkrarən, çeçen uşaqları üçün də keçirilmişdir.




*Yay düşərgəsi iştirakçılarına sertifikatların verilməsi*

*Təhsil ilinin başlanması ilə əlaqədar QQGM-də tədbir keçirilmişdir. Tədbirin əvvəlində, UYŞH üzrə qadın bərbəri kurslarını ötən il və bu ildə başa vuran şagirdlər ibtidai sinif uşaqlarına bərbər xidməti göstərmişlər. Bu aksiya kurs məzunlarına öz bacarıqlarını nümayiş etmək üçün bir imkan olmuş və eyni zamanda uşaqların və onların valideynlərinin sevincinə səbəb olmuşdur. Aksiyadan sonra, uşaqlar hazırladıqları proqramla çıxış etmişdirlər. Sonda tədbir iştirakçıları və eyni zamanda kompüter və UYŞH kurslarını uğurla bitirən məzunlar müvafiq sertifikatlarla təltif edilmişdirlər.*

# Gəlir və iş imkanlarının artırılması yolu ilə Azərbaycandakı məcburi köçkünlərə dəstək

UNHCR
The UN Refugee Agency

Azərbaycanda fəaliyyət göstərən yerli-qeyri hökümət təşkilatları arasında "Ümid" SİDİB-in xüsusi yeri vardır, belə ki, bu təşkilatın yarandığı gündən bugünə kimi əsas məramı ağır vəziyyətdə yaşayan- qaçqın,məcburi köçkün və sığınacaq axtaran insanlara maddi və mənəvi dayaq durmaqdan ibarətdir.Öz ata-baba yurdlarından uzaq düşümüş insanların yaşayış tərzlərinin minimum yaxşılaşdırılması üçün təşkilatımızın gördüyü işlər çox təqdirəlayiqdir.Təkcə Sumqayıt şəhərində müvəqqəti məskunlaşmış 600-ə yaxın yeniyetmə və gənclərə yarandığı gündən bugünə kimi təşkilatın dəstəyi ilə müxtəlif tipli sənətlər öyrədilmiş və bu gün həmin sənətkarların səsləri demək olar ki, Azərbaycanın bütün regionlarından gəlir. Lakin buna baxmayaraq illərlə yaşayıb qazandıqlarını, tikib yaratdıqlarını bir göz qırpımında itirən bu insanların bəzi problemləri hələ də qalmaqdadır. İnsanların gəlir və iş imkanlarının artırılması, onların biznes bacarıqlarının genişləndirilməsi üçün belə layihələrin davam etdirilməsi bundan sonra da vacibdir.



*Foto-video sahəsində təlim*

**1) MK gəncləri peşə təlimi kurslarına və biznes təlimlərinə cəlb etməklə onların gəlir və məşğulluq imkanlarının artırılması:**

Təşkilat tərəfindən Sumqayıt şəhərində həyata keçirilən layihənin "Usta yanında şagird hazırlığı" komponenti bugün də Sumqayıt və ona yaxın ərazilərdə müvəffəqiyyətlə həyata keçirilir. Belə ki, ilin əvvəlindən bugünə kimi 18 qaçqın və məcburi köçkün gəncə müxtəlif peşələr öyrədilmiş, bunlardan 6 nəfəri artıq müstəqil usta kimi fəalliyyət göstərməklə ailələrinə qazanc gətirirlər. Sahələri bitirmiş digər gənclər isə evlərində fəaliyyət göstərirlər.

III rüb ərzində qadın dərzisi sahəsi üzrə 3, dəmirçi-rəngsaz sahə üzrə 3, mobil telefon təmiri sahəsi üzrə 3 şagird təlimlərini müvəffəqiyyətlə başa vuraraq sertifikatlarını almışlar. Qalan Qadın bərbəri –II sahəsində 3 şagird, Foto-video sahəsində isə 2 şagird təlimlərini davam etdirirlər.

Təlimləri müvəffəqiyyətlə başa vuran və artıq özləri üçün yenicə biznes fəaliyyəti quran 6 gənc ustaya qrant verilməsi üçün biznes planların hazırlanması tapşırılmış və onlara bu biznes planlarının hazırlanması barədə bəzi məsləhətlər verilmişdir.

**2) MK gənclərin kompüter bacarıqlarının artırılması, faydalananların bilik və bacarıqları üzrə məlumat bazasının hazırlanması:**

Kompüter təlimi sahəsi üzrə isə 2012-ci ilin iyul-sentyabr ayları ərzində MS Office (MS Word 2007, Excel 2007, Power Point,Outlook) və Adobe Photoshop proqramları üzrə həftədə 2 dəfə 1,5 saat olmaqla "Ümid" SİD İB-nin ofisində təşkil edilmiş kompüter təliminə cəlb olunmuş 17 nəfərdən 9 –u təlimləri başa vuraraq sertifikatlarını almış, 8 nəfər isə hal-hazırda təlimlərini davam etdirirlər. Ümumilikdə bugünə kimi komputer təliminə 33 nəfər gənc və yeniyetmələr cəlb olunmuşlar. Daha 8 nəfər isə növbəti aylardan təlimlərə cəlb olunacaqlar.



*Qadın dərzisi sahəsində təlim*

**3) Məcburi köçkünlər və aztəminatlı əhaliyə humanitar yardımların paylanması**

Layihənin digər bir komponenti MK və aztəminatlı insanlara qeyri-ərzaq humanitar yardımların paylanmasından ibarətdir. Ötən illərdə olduğu kimi bu il də Yaponiya dövləti tərəfindən göndərilmiş 240 ədəd "Xəyal boxçaları" adlı qeyri-ərzaq humanitar yardımı Araz-1 icması ərazisində yaşayan azyaşlı uşaqlara paylanmışdır.

***Adəti üzrə hər il olduğu kimi bu il də gənc ustalarımız humanitar aksiyada fəal iştirak etmişlər. Belə ki, 9 nəfər qadın və kişi bərbəri sənətinə yiyələnmiş gənc ustalarımız "SOS uşaq kəndləri" təşkilatının əqli və fiziki cəhətdən qüsurlu 40 uşağına pulsuz xidmət göstərmişlər. Bu aksiya uşaqların böyük sevincinə səbəb olmuşdur və onlar belə aksiyaların hər il***



*"Xəyal boxçaları"nın paylanması*

# SEDA icma layihələrinin icrasına başladı

**SEDA-nın şüarı:** *Regional inkişaf naminə vətəndaşların iştirakılığının artırılması*

*İcmalar tərəfindən müəyyən olunan infrastruktur layihələrə dəstək vermək və proqramın əhatə et-diyi və ətraf regionlarda sosial-iqtisadi inkişaf prioritetlərini və proqramları müəyyənləşdirmək üçün tərəfdaşların iştirakını gücləndirməklə Azərbaycanda regionların sosial-iqtisadi inkişafına töhfə vermək məqsədini daşıyan SEDA layihəsi 2011-ci ilin oktyabr ayında ABŞ-ın BEynəlxalq İnkişaf Agentliyi ilə Azərbaycan Hökumətinin birgə maliyyəsi altında Şərq-Qərb İdarəetmə İnstitutu, "Ümid" SİD və Qeyri-KOmmersiya Hüququ üzrə BEnəlxalq Mərkəz tərəfindən hayata keçirilməyə başlamışdır.*

SEDA layihəsi çərçivəsində barədə məlumatın verilməsi məqsədilə ümumi icma yığıncaqlarına hazırlıq məqsədi ilə 13 icmada yerli Bələdiyyə, İcra nümayəndəsi və icma fəalları ilə 13 görüş keçirilmişdir.



İmişli rayonu Nurulu icmasında Ehtiyacların Qiymətləndirilməsi üzrə Dəyirmi Masa

Hədəf icmalarda SEDA layihəsi haqqında, həmçinin İİŞ üzvlərinin seçim kriteriyaları və öhdəlikləri barədə məlumatların verilməsi və İcma müzakirələrinə başlamaq məqsədilə Aran və Şimal regionları üzrə 14 icmada 14 ümumi icma yığıncağı keçirilmişdir. Görüşdə "Ümid" SİDİB – nin əməkdaşları, kənd İcra Nümayədələri, Yerli Bələdiyə və icma üzvləri iştirak etmişdirlər. Görüşdə SEDA layihəsi, komponentləri, məqsəd və vəzifələri, layihənin prosedurları və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilm iş, gələcək əməkdaşlıq imkanları müzakirə edilmiş, icma səfərbəçiləri tərfindən İİŞ-nın seçim meyarları və öhdəlikləri tədbir iştirakçılarının nəzərinə çatdırılmışdır.

İİŞ-nın tərkibinin seçilməsi (yenidən formalaşdırılması) məqsədi ilə Aran və Şimal regionu üzrə 17 icmada 17 ümumi icma yığıncağı keçirilmişdir. Yığıncaq zamanı icma üzvləri tərəfindən yerli sakinlərdən bitərəf hesab etdikləri 3 nəfəri açıq səsvermə yolu ilə İİŞ-nın üzvlərinə seçki komissiyasının tərkibinə seçmiş, İİŞ-nın üzvlüyünə isə 15-25 nəfər namizəd irəli sürülmüşdür. İcma üzvləri qeydiyyatdan keçərək, verilmiş bülletenə etimad etdikləri namizədlərin adlarını qeyd edib seçki qutusuna atmışlar. Səsvermə prosesi bitdikdən sonra, qutu seçki komissiyası üzvləri tərəfindən açılmış və bülletenlər sayılmışdır. İcma üzvünün iştirak etdiyi səsvermədən sonra səs çoxluğunun sayına görə 9-13 nəfər İİŞ üzvlüyünə seçilmişdir.

Aran və Şimal regionu üzrə 18 İcmada 63 Dəyirmi Masa keçirilmişdir.



İmişli Ofisində Layihələrin Qiymətləndirilməsi Komissiyasının iclası

Hesabat dövrü ərzində Şimal və Aran regionları üzrə hədəf icmalarda İİŞ üzvlərinin Səfərbərlik, Liderlik və komanda işi, icma fondu və icma töhfəsinin idarə olunması, icma ehtiyaclarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi, həmçinin layihə təklifinin tərtibatı onun maliyyələşdirilməsi və həyata keçirilməsi, monitorinqi, qiymətləndirilməsi və s. sahəsində bacarıqlarının artırılması istiqamətində layihənin fəaliyyət planına uyğun olaraq nəzərdə tutulmuş I mərhələ təlimləri verilmişdir. Ümumilikdə Aran və Şimal regionu üzrə 18 icmada 5 mövzuda 70 təlim verilmişdir.

Aran və Şimal regionlrı üzrə 5 icmadan (Şabran rayonu Şahnəzərli, Quba r-nu Zərdabi, Xaçmaz r-nu Aşağı Zeyid, Sabirabad rayonu Əhmədabad və İmişli rayonu Oruclu ) qəbul olunmuş Layihə təkliflərinin qiymətləndirilməsi məqsədi ilə Qiymətləndirmə komissiyasının 5 iclası keçirilmişdir. İclasda ŞQİİ-nun ölkə üzrə direktorunun müavini Z.Quliyeva,ŞQİİ-nun regional əməkdaşları, "Ümid" SİD İB-nin proqram üzrə direktoru R. Quliyev, mühəndis Z. Rzayev, İqtisadi İnkişaf Nazirliyinin regional nümayəndələrii və Quba, Xaçmaz,Şabran,İmişli və Sabirabad RİH-nin əməkdaşları iştirak etmişlər. Komissiya üzvlərinin qiymətləndirməsi nəticəsində 5 layihə təklifinin (Şahnəzərli icması:"İçməli su təminatının yaxşılaşdırılması", Zərdabi icması: "İcmadaxili əsas yolun asfaltlanması və işıqlandırılması", Aşağı Zeyid icması "İcmadaxili yolların təmiri", əhmədabad icması "İcmadaxili yolların təmiri" və Oruclu icması "Səyyari xeyir-şər mağarının hazırlanması") maliyyələşdirilməsi üçün Layihənlərin Texniki Təsvirinin Hazırlanıb təqdim olunması qərara alınmışdır.



Əliyetməzli icmasında
İcma İnkişafı Şurası üzvlərinin seçimi prosesi

18 icmada sosial-iqtisadi layihələrin həyata keçirilməsində qarşılıqlı töhfə və öhdəliklərlə bağlı gözləntiləri təsdiqləmək məqsədilə ŞQİİ, hədəf icma və Yerli Bələdiyyələr arasında üçtərəfli anlaşma memorandumları imzalanmışdır.

# Süd istehsalçılarının bazara çıxışlarının yaxşılaşdırılması onları bazar zəncirinin iştirakçılarına çevirir

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və BP və tərəfdaşlarının maliyyəsi ilə həyata keçirilən "Süd və Süd Məhsulları İstehsalçılarına İcma Əsaslı Dəstək" layihəsi başa çatmaq üzrədir. Layihənin uğurla başa çatdırılması üçün iş planı bir daha nəzərdən keçirilmiş, yerinə yetirilmiş fəaliyyətlər və görüləcək işlər müzakirə olunmuşdur. Layihənin iş planında lazımi dəyişikliklər edilmişdir.



*Nemətabad Süd Toplama Məntəqəsi*

İş planına uyğun olaraq nəzərdə tutulmuş fəaliyyətlər (təlim və məsləhətlər, əlaqələndirmə, STM-nin qurulması) davam etdirilmişdir.

STM-nin quraşdırılması və idarə olunması üçün SEM-i olan "Biləsuvaraqro" MMC, "Azərsun Holdinq"-in Kürdəmir Süd Zavodu və "Göyçay-Süd" ASC ilə əməkdaşlıq olunmuşdur.

Layihə çərçivəsində əməkdaşlıq olunan icmalarda STM-nə 2011-ci ilin 3-cü rübü ərzində 210180 litr, 2012-ci ilin 3-cü rübü ərzində isə 421768 litr xam süd satılmışdır. Bu isə süd satışının keçən ilin uyğun rübü ilə müqayisədə 2 dəfədən çox artdığını göstərir.



*"Təmiz Ferma" müsabiqəsi*

Rüb ərzində, ümumilikdə STM fəaliyyət göstərən icmalarda 319 təsərrüfat SEM-nə süd satmişdir. Bu icmalarda süd istehsalı və satışından 151836 manat vəsait əldə olunmuşdur. Bu da hər bir təsərrüfatın orta hesabla bir ayda 160 manat gəlir əldə etməsi deməkdir.

26-27 sentyabr, 2012-ci il tarixində, USAİD-nin layihə üzrə məsul şəxsləri Layihənin İdarə Olunması üzrə Köməkçi Ülkər Əkbərova, İnzibati İşlər üzrə Köməkçi Azad Dadaşov və Proqramlar Şöbəsinin Müdiri Sanat K. Reddi layihənin həyata keçirilməsi vəziyyəti ilə tanış olmaq üçün hədəf ərazilərdə fəaliyyət göstərən STM-də və Süd istehsal edən fərdi təsərrüfatlarda olmuşlar.

Onlar Samux rayon Seyidlər, Şəmkir rayon Sarıtəpə və Yevlax rayon Nemətabad icmalarında STM-nin fəaliyyəti ilə yaxından tanış olmuş, südün qəbulu, analizi, soyudulması, nəqli, süd istehsalçılarına vəsaitlərin ödənilməsi və SEM-ri ilə əşəkdaşlıq məsələlərinə dair məlumat əldə etmişlər.



*Seyidlər icmasının üzvü Abbasov Faiq öz təsərrüfatının istiqamətini qoyunçuluqdan südçülük istiqamətinə dəyişdirmişdir*

Qonaqlar hər bir icmada süd istehsal edən fərdi təsərrüfatlarda olaraq onların fikirlərini bölüşmüş və malqaranın saxlanması, istehsal olunan və satılan südün həcmi, əldə olunan gəlir, yemlərdən istifadə, layihə çərçivəsində yaranmış əlaqələr və əldə olunuş bilik, bacarıqlara dair söhbətlər aparmışlar.

Layihənin dayanıqlılığını təmin etmək məqsədi ilə fəaliyyət prosesində icazə sənədlərinin alınması, müxtəlif xidmətlərdən istifadə olunması və digər sahələrdə hökumət və özəl qurumlarla, QHT-lər ilə sıx əmkdaşlıq olunmuşdur.

***Sektor üzrə yaranan yeni bazar iştirakçılarının sayı artdıqca bazarda rəqabətin gücü də artmaqda davam edir. Kiçik emal müəssisələri rəqabətə davam gətirməyərək bazarı tərk etdi. Yeni yaranmış iri süd emal müəssisələri isə rəqabət mühitində fəaliyyət göstərirlər.***

## Coca-Cola Fondunun dəstəyi ilə Bakı məktəblərində təmir işləri başa çatmışdır

"Ümid" SİD İB Coca-Cola Fondunun maliyyə dəstəyi ilə ***"Məktəblərdə su və kanalizasiya sistemlərinin bərpası, ekoloji güşənin yaradılması"*** layihəsini 2012-ci ilin 3-cü rübü ərzində müvəffəqiyyətlə davam etdirmişdir. Layihə çərçivəsində təmir işlərinin aparılacağı nəzərdə tutulmuş məktəblərdən üçündə - 297, 300 və 301 saylı məktəblərdə layihə üzrə işlər yekunlaşdırılmış və yalnız rüb ərzində 297 saylı orta məktəbdə təmir işləri aparılmışdır.

80 müəlim, 20 texniki işçinin fəaliyyət göstərdiyi və 800 şagirdin təhsil aldığı 298 saylı orta məktəbdə təmir işlərinə iyun ayında başlanmışdır. Məktəb 120 metr məsafədən çəkilməklə daimi su ilə təmin olunmuş, məktəbdə bir ədəd su nasosu quraşdırılmışdır. 180 metr kanalizasiya xətti yenisi ilə əvəz olunmuş, dörd yerdə kanalizasiya lüku quraşdırılmışdır. Məktəbdə 30 $m^2$ sahədə Ekoloji güşə yaradılmışdır. Məktəbin bufetində bir sutkada 600 litr ekoloji təmiz su verən su təmizləyici filtr quraşdırılmış, şagirdlərin istifadəsi üçün bufetin qarşısına əlavə su xətti çəkilmişdir. Beləliklə, 900 nəfər ekoloji cəhətdən təmiz su ilə təmin olunmuşdur. Məktəbdə ayaqyolular təmir olunmuş, qapı pəncərələr dəyişdirilmişdir. Beləliklə, 800 şagirdin və 80 müllim heyətinin ayaqyolundan istifadəsi üçün yaxşı şərait yaradılmışdır. Məktəbdə təmir işləri avqust ayında başa çatdırılmışdır.



*298 Nəli orta məktəbin ayaqyolusu təmir işlərindən sonra*

Təmir işlərinin başa çatdırılması və açılışla əlaqədar, Azərbaycan Respublikası Təhsil Nazirliyinə, Binəqədi Rayonu İcra Hakimiyyətinə və Bakı şəhəri Təhsil idarəsinə məktub göndərilmişdir.

10 sentyabr, 2012-ci ildə 297 saylı orta məktəbdə açılış mərasimi təşkil olunmuş və digər üç məktəbə baxış keçirilmişdir. Açılış mərasimində Binəqədi rayonu icra hakimiyyətinin səlahiyyətli nümüyəndələri, Bakı şəhəri Təhsil İdarəsinin səlahiyyətli nümayəndəsi, Coca-Cola fondunun səlahiyyətli nümayəndəsi, "Ümid" SİD İB-nin rəhbərliyi, təmir olunmuş digər məktəblərin direktorları və 297 saylı məktəbin müəllim heyəti iştirak etmişlər.

## Ünvanlarımız


***Baş ofis:***
**Bakı şəhəri, Ə.Cavad küç.-7A**
**Tel./ Faks (+99412) 434 53 15; (+99412) 434 96 98**

***Bakı sahə ofisi:***
**Nərimanov r-nu., Orucəliyev küç.- Q-46**
**Tel: (+99412) 437 82 39**

***Sumqayıt sahə ofisi:***
**6-cı mkr-n, C. Məmmədquluzadə küç.**
**Tel: (+99418) 642 55 18**

***Bakı sahə ofisi:***
**Sahil qəs.,B.Əliyev küç., ev 3, mən. 14**
**Teı: (+99412) 446 41 26**

***Gəncə regional ofis:***
**Süleyman Rəhimov küç.-30**
**Tel: (+99422) 57 48 62**
**Katel: (+99912) 417 96 98**